Ədəbiyyat qəzeti :
xüsusi buraxılış
22 may 2021-ci il





Elxan ZAL

*Sabir Rüstəmxanlı Azərbaycan milli şüurunun formalaşmasına önəmli təsiri olan qələm adamlarımızdandır. Onun "Ömür kitabı" bu gün Azərbaycan elitasını formalaşdırmaqda olan insanların ömür kitabı oldu. Məhz bu nəslin insanlarının zamanında xalqımız Prezident İlham Əliyevin rəhbərliyi altında uzun əsrlərdən sonra ilk hərbi Zəfərini qazandı və bu Zəfər sayəsində ictimai şüurda yeni situasiya yarandı. Şübhəsiz ki, bu Zəfərdə Sabir Rüstəmxanlının və bir çox qələm sahiblərimizin böyük rolu var. Mən həmişə demişəm də, yazmışam da, Azərbaycan dövlətçiliyi, Azərbaycan xalqı bu gün var olmasıyla qələm və fikir adamlarına borcludur. Məhz onlar yoxdan var elədilər Azərbaycan qayəsini. Buna görə də bizim xalqımızın qələm adamlarına olan sevgisi təhtəlşüur səviyyəsindədir, bu sevgi həmişə olub, olacaq da. Sabir Rüstəmxanlı da bu qəbildən olan qələm və fikir adamlarımızdandır. O, həyatı ilə də, yazıları ilə də həmişə milli qayəyə xidmət edib. Hələ Sovet dönəmində onun şeirləri öz milli mövqeləri ilə seçilirdilər və Azərbaycanı müstəqilliyə daşıyacaq nəslin formalaşmasında böyük rol oynadılar. Əsrlər uzunu zəncirdə saxlanılmağa çalışılan türk ruhunun Azərbaycanda yenidən pərvazlanmasında da Sabir Rüstəmxanlının rolu az olmadı. Tarixin yaddaş arxivində tozlanıb qalmış mövzuları əsrlərin dərinliyindən bu günə gətirdi. O bir qələm adamı kimi də, bir siyasi xadim kimi də Azərbaycanın, Türk birliyinin qalxınması üçün ömür sərf eləyir. Onun yaratdığı partiya "Vətəndaş həmrəyliyi" adlanır, çünki bu ideyanın gerçəkləşməsi onun ömür yoludur. Sabir Rüstəmxanlı o adamlardandır ki, mən həmişə ona baxanda gözümdə bir Azərbaycan ziyalısının, bir türk bilgəsinin obrazı canlanır. İndiki zamanda belə adamların olması çox vacibdir, çünki bizə örnəklər lazımdır.*

*Sabir Rüstəmxanlı kimi!*